

Ənvər ÇİNGİZOĞLU

# Elat eşşəyi

Hacı Bayır Ərdəbili Hacı Böyük ağa tacirbaşının nəvəsidir. Var-dövlətini dünya tutmur. Elə Ərdəbilin Rasta bazarında iyirmidən çox zinətfüruş dükanı var. Hamısı da qızıl-gümüş, zər-ziba təpili. Tamahına “tit” deməyib, “torpaq ağası” da olmaq istəyirdi. Yatırından bir-iki kisə götürüb hərraca yollandı. Aslandüzün dövrəbərindən yüz dönüm sulu torpaq aldı. İlkinə taxıl əkdirdi ki, bərəkətli olsun. Əkdirməyinə əkdirdi, amma yadından çıxarmışdı ki, aldığı sahə şahsevənlərin qışlaqları ilə qonşudur. Hacı Zeynalabdin xüddambaşı bu fikri onun yadına salanda qanı qaraldı. Hər ikisinə əyan idi ki, şahsevənlər nə validən qorxurlar, nə vəzirdən. Yeganə çəkinəcəkləri elbəyi Fərzi xan Sarıxanbəyli idi, o da Meşkində əyləşirdi. Əli Arazın qırağına çətin çatırdı. Yol yorğunu olmaq istəmirdi. Hacı Bayıra görə də yerindən qımıldanmazdı. Söz yox ki, Hacı Bayır xətirsiz-hörmətsiz adamdır, intəhası Fərzi xan vəliəhd Müzəffərəddin mirzəni də eşitmirdi. Vəliəhd ona söz demək istəyəndə əvvəlcə bir “Dərəceyi-yek Şire-Xurşid” nişanı göndərirdi.

İki dost məsləhətləşib Fərzi xandan əl üzdülər. Əlacları oymaqbəylərinə qaldı. Hacı Zeynalabdin xüddambaşı Şeyx Səfi məqbərəsində xidmət edirdi. Ərdəbildə, Dəşti-Muğanda tanımadığı adam yox idi. Hacı Bayır saqqalını tumarlayıb, dostuna xitabən dilləndi:

– Hacı, bu xaraba Aslandüzün dövrəbərində ən sözü keçən ağsaqqal kimdir? Hansı yüzbaşını daha çox eşidirlər?

– Ən təsirlisi Hacı Həzrətqulu bəy Hacıxocalıdır ki, ona da söz keçmir.

– Niyə? O da “Şire-Xurşid” istəyir?!

– Yox! Onun qocabəylilərlə qan davası var. Başı onlara qarışıqdı. Ağlımda bir nəfər var. Sənə kömək etsə-etsə, o edəcək.

– Hacı, getdiyin o beytülmüqəddəs imdadına yetsin! Kimdi o mübarək?

– Həmin şəxs Gəbəlu Kalba Dərgahqulu yüzbaşıdı. Səni şahsevənin afətindən qurtarsa, o qurtaracaq. Aslandüzün qışlaq yerlərinin çoxu onun oymağına məxsusdu. Di işini Allah avand etsin! Get onun qulluğuna. Dilini də şirin, sovqatını bol elə. Çoxlu da çit-çirpik apar, əyal-uşağı çoxdu. Cüməni gözləmə, sübh tezdən yola düş. Mən də Övqafi-müqəddəsə baş çəkim. Görüm o möqüfatda nələr baş verir?!

Sabah təzəcə açılmışdı. Üzü Muğana gedən qəflə-qatırın yiyəsi Hacı Bayır idi. Oğlu Ağa Möhsünü də özü ilə götürmüşdü. Nökər-naib qıfxıra-qıfxıra heyvanları tələsdirirdi. Hacı Bayır özü bir ağ qatıra minmişdi. Saqqalına qırmızı həna qoymuşdu. Qırmızı həna tozdan görünməz olmuşdu. Pəjmürdə sifətindən bilinirdi ki, fikrə gedib. Fikri artıq Aslandüzdə idi. Özü hələ Soyuqbulağı keçməmişdi.

İki günə yolu qət eləyib, Aslandüzə çatdılar. Gəbəli oymağının qışlağını soruşdular. Qışlaq "Nadir təpəsi"nin yan-yörəsində qurulmuşdu. Bir dam-daş nəzərə dəymirdi. Qışlaq dəyələrdən ibarət idi. Kalba Dərgahqulu yüzbaşının dəyəsi böyüklüyündən bəlliydi. Tuşlandılar ora. Uşaqlar qənşərə çıxıb hürüşən itləri qovdular. Qatırları örnəşdirib torbaları taxdılar başlarına. Sovqat-savrumu daşıyıb, dəyənin kənarına yığdılar. Qonaqları evə dəvət edib dördə yer göstərdilər. Süfrə salındı. Samovar çayı gəldi ortalığa. Qəndin yanında kişmişlə tut qurusu da vardı. Çay içə-içə tanış oldular:

– Kalba Dərgahqulu yüzbaşı, mən bu dövrəbərin təzə maliklərindənəm. Əsliyyətim ərdəbillidir. Qaradəyənək məhəlləsindən Hacı Böyük ağa tacirbaşının nəvəsiyəm. Pədərim Mirzə Möhsün tez Allahın rəhmətinə vüslət etdiyindən pədər-bozorqumun təhti-tabeliyində pərvəriş tapmışam...

Çöldən gələn qəhqəhə hacının sözünü kəsdi. Hacı Bayır möhkəm pərt oldu. Qız xeylağı da belə ucadan gülər?! Mat-mat Kalba Dərgahqulu yüzbaşının üzünə baxdı. Kalba Dərgahqulu yüzbaşı da böyük oğluna baxdı:

– Gədə, çıx o sağıcının səsini kəs! Evdə qonaq var.

Böyük oğul süfrə ətrafında diz üstündə çökmüşdü. Durub çölə çıxdı.

Hacı Bayır yenə üzünü yüzbaşıya tutdu:

– Kərbəlayı, niyə izn verirsiniz ki, ayaqçılar tərbiyəsizlik etsinlər? Vallahi, bizim xanədə bu iş olsaydı, dərilərindən zol çıxardardım...

– Hacı ağa, bu ayaqçı dediyiniz böyük kənizinizdir. Qızım Çiçəkdi. Bir az ağzı qulağının dibindədi. Güləyəndi köppəkqızı! Onun şaqraq gülüşü qəlbimin məlhəmidir. Nənəmin adını qoymuşam. Kimsə xətrinə dəyə bilməz. Qərəz, əziz qonağımız Ərdəbildən təşrif buyurub. Buraların təzə maliklərindəndir. Fərmayişiniz nədən ibarətdi? Biz qonaq yolunda hər cəfaya hazır varıq.

– Mehmannəvazlığınıza görə minnətdar varıq, Kərbəlayı! Xahişimiz ondan ibarətdir ki, bizim bu dövrəbərdə xeyli yerimiz var. Hamısına da taxıl-tərnə əkmişik. Məqsədimiz məmləkəti-İranda aclığın, səfalətin dəfidi. Qazancımız da Allahın savabıdı. Yığılan hasilatın da çoxu bu ətraf obalara dağıdılacaq. Təbrizin əllaflarının sizin başınıza açdığı oyunlar Allahın altında hər kəsə məlumdur. Gəlin əl-ələ verib, xalqı qayğıdan qurtaraq. Bu dövrəbərdə sizin sözünüzün üstünə söz yoxdur. Çörəyə kəm baxanı nəbiyül-mürsəl də qarğayıb. Şahsevən otarmasa, sizli-bizli çörək yiyəsi olarıq. Mən bilirəm ki, heykəl başınızı tərpədib razı olacaqsınız. "Qurani-Kərim"də buyurulur: "Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu diriltdir, oradan dənələr çıxardırıq, onlar da onlardan yeyirlər". Hamımız bu savab işə vasitəçi olmalıyıq. Daha bir əlavəniz varmı?

– Hacı, mən dəqiqini bilirəm ki, quran oxumaqla donuz darıdan çıxmaz. Şahsevən içində sözə baxan adam azdır. Tutaq ki, Gəbəli mənim sözümü eşitdi, Hacıxocalı eşitməyəcək. Açığı, onlar heç Əmir Tumanın da sözünü eşitmirlər. Siz taxıl cücərən kimi qoruqçu tutun. Mən də öz camaatıma, yaxın-simsara bildirəcəyəm ki, sizə korluq verməsinlər. Yazın qırxbeşinə qədər dözə bilsəniz, ondan sonra hamı yaylağa qalxır.

– Qoruqçunu Ərdəbildən gətirməyəcəm ki! Siz burdan adam təyin edin, muzdunu da mən verim. Yaxşı qoruya bilsələr, taxıl-tərnə ilə də kömək edərəm. Danışdıq?

– Danışdıq, hacı! Gədə, uşaqlara de, naharı gətirsinlər.

Nahar tamamlanandan sonra Ağa Möhsün mürəxxəs istəyib bayıra çıxdı. Çiçəyin qəhqəhəsi yenidən dəyəni bürüdü. Hacı başını aşağı saldı, Kərbəlayı yerində qurcuxdu:

– A gədə, qoyma!..

***

Ərdəbil. Qaradəyənək məhəlləsi. Azan səsi gəlir. Hacı Bayır namaz qılır. Qurtarıb, təsbeh çevirir. Arvadı Hacı Mülkicahan xanım içəri daxil olur:

– Hacı, Allah qəbul etsin!

– Çox sağ ol, Hacıxanım! Nə var, nə yox? Sözlü adama oxşayırsan.

– Bizim bəyoğlan şahsevən qızına aşiq olub.

– Nə qız, nə şahsevən, nə danışırsan?!

– Evində olduğunuz kişinin qızına. Deyir ki, pədəri-möhtərəmə ərz elə, o qızı alsın mənə!

Sevincdən Hacı Bayırın çiçəyi çırtdadı. Toruna tərlan düşmüşdü. Bir daşla iki quş vuracaqdı. Həm gəlin gətirəcəydi, həm də taxılını bemuzd qorudacaqdı. Şahsevənlər qız əsiriydilər. Hara qızları düşürdüsə, oranı ocaq bilirdilər. Üzünü arvadına tutdu:

– Allah xeyir versin! Yığışın, cüməyə ordayıq. Tədarükünüzü mükəmməl görün.

***

Bu dəfə qəflə-qatırı dəqiq ünvana sürdülər. Muğan, Aslandüz, "Nadir təpəsi"nin ətrafı, Gəbəli obası, Kalba Dərgahqulu yüzbaşının dəyəsi. Şahsevənlər də yenə itləri qovub qatırları örnəşdirdilər. Sovqat-savrum birbaşa dəyəyə daşındı. Kişilər bir dəyədə, qız-qadın başqa bir dəyədə ağırlandı. Süfrə ətrafına toplananlara Kalba Dərgahqulu yüzbaşı "xoşgəldin" elədi:

– Xoş gəldiniz, Hacı Bayır! Səfalar gətirdiniz! Yol sizi yormadı ki? Yəqin ki, gəlişinizin səbəbini açıqlayarsınız. Biədəblik olmasın, açığı, bu tezliklə dönəcəyinizi gözləmirdik. Taxıl tarlası əmin əllərdədir. Qayım qorunur. Yalan olmasın, quş da səkə bilmir.

– Xoş gününüzə gəldik, Kərbəlayı! Səbəbi-təşrifatımız bir xeyir işlə bağlıdır. Çakəri-xasınız sizin kəriməni görüb, bəyənib. Bizə də Allahın izni ilə cavanları ev-eşik eləmək qalır. Söz sizindir...

– Allah nə istəsə, o olacaq. Bizim külatan sizin xanımağayla yollaşsınlar, qızın da razılığını alsınlar, qalanı asandı. Gədə, qonaqlara quzu kəsin!..

Arvadlar da kəsəmətlərini kəsib, kəbin hazırlığına başladılar. "Qızyolu" oğlan evindən 2 dəvə, 2 at, 2 öküz və 50 qoyun istədilər. Hacı Bayır ürəklə bunları ödədi. Üstəlik, qıza o qədər qızıl zinətləri gətirmişdilər ki, bütün Şahsevən elə tamaşaya durmuşdu. Toyu bir ay sonraya qərarlaşdılar. Toy Ərdəbildə olacaqdı. "Allah xeyir versin!" – deyib, mübarəkbadlıq elədilər.

***

Bir ay da keçdi, toy da oldu, Çiçəyi gəlin gətirib bir otağa qoydular. Bu otaq Ərdəbildə əndərun adlanırdı. Pəncərəsi dəyə bacası kimi çox yuxarıda idi. Çölə baxmaq qeyri-mümkündü. Yarımqaranlıq əndərunda ondan başqa bir ins-cins yoxdu. Qayınanası Mülkicahan xanım birunda əyləşirdi, ya da mətbəxdə olurdu. Əri bütün günü bazarda olduğundan gəlinin də təkcə zəhri çatlayırdı. Əndərundan çıxıb biruna varid oldu. Qayınanası mətbəxdə olduğundan ora keçdi:

– Sabahın xeyir, xala!

– Xalan evinizdə qaldı. Mənə hacıxanım de.

Çiçək pərt oldu. Elə ilk gündəcə qayınanalığını bildirdi, – deyə fikirləşdi. Amma cavabını da gecikdirmədi:

– Evimizdəki xalalar daha mehriban idilər.

– Qız, sən nə danışırsan! Dilini qarnına qoy! Gəlin danışmaz.

– Niyə danışmaz gəlin? Laldı, pəltəkdi? Nə qəbahət eləyib ki? Gəlinin düşdüyü yer gəlin olar! "Xala" dedim də. Xala bəyəm pis sözdü?!

– Buna bax e, sən Allah! Mən bir dedim, bu üç. Qız, ədəbin-ərkanın olsun! Sürük əndəruna, bir də buralara ayaq basma.

Çiçək ağlayaraq əndəruna getdi. Qayınanası da ardınca:

– Elat eşşəyi! Ərkan bilməz nanəcib!

Çiçək də qayıtdı:

– Sən də tat eşşəyisən, nəcibindən, Həmədanlı!

Hacı Mülkicahan xanım qışqırıb yerə yıxıldı. Bu qədər yaşamışdı, onun bir sözünü iki eləyən olmamışdı.

– Qoy hacı bazardan gəlsin, sənin talağını geri oxutmasam, atamın qızı deyiləm!

Çiçək qapını qapadı. Hacıxanımın ancaq boğuq səsi gəlirdi. Nə dediyi anlaşılmırdı.

***

Axşam oldu. Şəvinik çalanda evin kişi əhli bazardan döndü. Hacı Bayır dəstəmaz alıb birunda namaza əyləşdi. Ağa Möhsün isə püfərək əndəruna keçdi.

– Necəsən, şahsevən qızı?! Anamla necə yollaşdınız? Dava-dartış düşmədi ki?

– Anan mənə demədiyi söyüş-sərsi qalmadı. Biözm elədi məni. Günahım nəymiş, nəymiş, ona xala demişəm. Gəlinbacı deməyəcəydim ki! Yaşlıya xala deyərlər də! Yaş yuyub, quru sərdi anan məni. Adımı da "Elat eşşəyi" qoydu. Ədəb-ərkan bilməzimişəm. Gözün çıxsın, ay dədə! Mənim bu xaraba Ərdəbildə nə işim vardı?

– Bəsdi ta! Az gözünün qorasını sıx! Günah məndədi. Gərək anamın xasiyyətini deyəydim. Birinci qayda: Heç vaxt anama “xala” demə. Elat ləhcəsini də unut, nə danışsan, tərkibinə bəzək qat. Hali-şərifləriniz necədir. Tək halda danışma. Hər şey qaydasına düşəcək. Sabah əlindən öpüb, barışarsan. Oldu?!

Çiçək başı ilə razılıq verdi. Sonra soruşdu:

– Çöldə hava necə idi?

– Bəyəm mən çöl görürəm?! Bazarın kifli havasıdı. Evə gələndə səni görməyə o qədər tələsirdim, yan-yörəyə də baxmadım.

– Ağa Möhsün, deyirəm, bəlkə, Muğana gedək?! Evdəkilərdən ötrü də darıxmışam.

– Qız, sən nə danışırsan?! Dünən evdən gəlməmisən? Aləmi bizə güldürmək istəyirsən? Qaxıl otur yerində, bayramda pədərdən icazə alıb gedərik.

– Hələ bayrama qırx gün var. Qırx gün bu qapalı yerdə nə təhər dözəcəyəm?!

– Dözərsən, inşallah! Möhkəm dur.

***

Sübh açılmış, ev əhli sübhanəsini yemişdi. Bazarçılar bazara yollanmışdılar. Evdə hacıxanım, Çiçək, bir-iki xidmətçi qalmışdı. Çiçək mətbəxə daxil olub, qayınanasının əlini öpdü. Halını xəbər aldı:

– Əhvali-şərifiniz necədir, hacıxanım? Necə yatdınız? Səhhəti-şərifiniz yaxşıdırmı?

– Şükür xudaya! Sağ və salim varıq. Sən necəsən?

– Mən də ömrünüzə duaçıyam!

– Duadan əskik olmayın!

– Hacıxanım, istəsəniz, bugünkü naharı mən hazırlayaram.

– Gəlingülümüz nə bacarır?

– Çığırtma, bozartma, qovurma, soyutma, doldurma, dolma, buğlama, pörtdəmə... Sonra bozbaş, qəlyə, bağırbeyin, quzudəmləməsi, quzuçevirməsi...

– Bəsdi, sən Allah! Səni özbaşına qoysalar, hacının evini yıxarsan ki!

– Niyə yıxıram hacının evini? Yeməklə ev yıxılar?

– Alımdan artmaz, qarından artar. Sənin bişirdiyin yeməklər, kiş-kişlər olsun, hacını bir aya iflas etdirər. Sən qayınatanı bir xoruza yük etdirmək istəyirsən?

– Yox, imamzada haqqı! Biz hər gün bu cür yeməklər bişirirdik. Hələ bəzən...

– Hələsi qaldı Muğanda! Burda evin birinci qanunu qənaətdir. Ərdəbil Muğan deyil. Burda xərc bahadı. Gərək biz ev adamları qənaəti bacaraq. Günorta naharı hacıgil bazarda edirlər. Ona görə də bizim evdə nahar bişməyəcək. Övnəmizi pənir-çöræklə keçirərik. Şama da düyü hazırlarıq. Ayaqçı dükandan aldığı bir girvənkə əti quşbaşı doğrayacaqsan, üstünə də göy-göyərti əlavə edib, səbzi-qovurma hazırlayacaqsan, yanına da şərbət qoyub paylayacaqsan ev adamlarına, olacaq bizim şamımız.

– Hacıxanım, nə görmüsünüz e bu siçan iyi verən düyüdə?! Hər gün düyü yemək olar? Dünəndə də düyü yedik. Bizim evdə düyü bayramda, bir də seyranda bişirdi.

– Dedim axı evinizdəki nizamı unut. Buranın nizamını mən tərtib etmişəm. Bu evdə mənim sözüm keçər, sənin yox! Düyü xoşuna gəlmir. Sənin həftadi-püştün düyü görüb? Düyünü bütün İran əhli, şahı, xanı, bəzirganı yeyir. Bu əşair qızı düyünü bəyənmir! Görmədim evinizdə yediyinizi?! Qaraqovurma qara ocağın his tamını verirdi. Odu yeməyiniz...

– Hacıxanım, o qaraqovurma xalis Muğan toğlusundan hazırlanmışdı. Ağam gözümüzün qabağında kəsmişdi. Sizin aldığınız ət, Allah bilir, nə tamı verir. Yeyib yuxumu qarışdırıram.

– Qız, bəlkə, Şıx Səfinin törəməsisən?! Biz bilmirik. Bəlkə, zahidisən, musəvisən, təbatəbaisən? Kimsən ki, səni tanımırıq? Elat qızı deyilsən?! Quzuqırxınından quzuqırxınına çimən, qabda bişirib, qapağında yeyən? Burnunu qoluna silən, oturub-durmasını bilməyən, kişi mərəkəsində gülən, çadra bilməyən, namaz tanımayan...

– Hər kiməmsə, buyam. Xoşunuz gəlmirdisə, niyə ikigünlük yolla ağamın qapısına gəlirdiniz?! Sizi mən dəvət etmişdim? Dediklərinizin də hamısı şər-şəbədədir. Biz çimməkdə heç cüməmizi keçirmirdik. Qapaqda-zadda da yemirik. Burnumu da qoluma silməmişəm. Gülməyin nəyi pisdi ki? Özünüzün yaşmaq altdan göstərdiyiniz dilləri eşidən olsa, qulağını tutar. Qonşunun üzünə gülüb, dalınca min sözün ürəyini üzürsünüz. Təmiz-tarıq olublar. Hər şeyi ayı kimi iyləndirib yeyirlər...

– Qız, sən yenə yolunu azdın ha! Deyəsən, könlündən Muğan keçir? İti qovan kimi qovaram

səni. Bu hacıya da nə deyim?! Bizim haramıza yaraşırdı elat eşşəyi!..

– Siz də tat eşşəyisiniz!..

Hacı Mülkicahan xanım qışqırıb yerə yıxıldı. Bu onun başına gələn ikinci əhvalat idi. Görəcəkli günləri varımış. Hacını qarğamaqdan başqa çarə tapmadı.

Çiçək də əndərunə çəkilib, qapını qapamışdı.

Daqqulbabın səsi gəldi. Ayaqçılardan biri darvazanı açmağa getdi. Gələnlər evin bazar əhli idi. Hacı dəstəmaz almağa yollandı. Ağa Möhsün isə əndəruna keçdi. Xanımı ilə salamlaşdı:

– Qız, mənə bir holə ver!

– Holə nədi, Ağa Möhsün?

– Dəsmal. Görmürsən suyun içindəyəm.

– Nə olub, Ağa Möhsün? Niyə islanmısan?

– Nə olacaq?! Çöldə yağış yağır. Hiss etməmisən?

– Yox, Ağa Möhsün! Xəbərim olmayıb. Bəlkə, çölə çıxaq? Yağışa tamaşa edək. Gəl, Ağa Möhsün! Əlini mənə ver!

– Qız, sənin fikrin bizi aləmə rüsvay eləməkdi?! Nə deyər Ərdəbil əhli?

– Ərdəbil bir şəhərdi, hərə öz vəkili. Kimin nə ixtiyarı var, bizə qarışsın. Yağışa baxmaq qəbahətdi? Ağam yanımda, ağlım başımda...

– Otur oturduğun yerdə! Sən bu şəhər əhlini tanımırsan. Hamısı bədzat, bədxasiyyət. Hər düşüncələrinə bir məzhəbi don geydirib, mələyi fahişə eləyirlər. Qoy oturaq yerimizdə. Dərdimiz başımızdan aşır. Bazar od tutub yanır, müştəri də yox. Pədər deyir, belə getsə...

Sözü ağzında qaldı Ağa Möhsünün. Anasının qıyyasını eşitdi:

– Ağa Möhsün, Ağa Möhsün!

Ağa Möhsün anasının səsinin tonundan anladı ki, yenə nəsə baş verib. Çiçəyə baxdı. Çiçək ona baxmadı. Əmin oldu ki, yenə mətbəxdə cəngi-cidal baş verib. Üzünü turşutdu, alnını qırışdırdı, keçdi anasının otağına. Anası onu görəndə başladı, nə başladı:

– Sənin bu çərhəyan var ha, məni aləmə dühazar elədi. Yumdu gözünü, açdı ağzını. Elə qələtlər yedi ki, dədəsi-babası duzunu dadmayıb...

– Nə dedi axı?!

– İndi onun dediklərini burda təkrarlamalıyam?! Mənim tərbiyəmə nə olub? Ya onu bu evdən genidirsən, ya mən atam evinə qayıtmalı olacam. Üç qız dünyaya gətirib tərbiyə eləmişəm. Hansı bu biçimdədi? Hansı qayınanasının yanında cınqırını çıxara bilər? O günü bacın Səməngülün qaynanası Axund qızı Kərbəlayı Fatmanisəni Şıx babanın ziyarətində gördüm. Ordan-burdan sonra qızı soruşdum. Dedi, hacıxanım, halal olsun atanın çörəyi sənə ki, belə qız yetişdiribsən! Ağzı var, dili yox! Yoxsa bu elat eşşəyi?! Bir deyənə beş deyir, hələ qarnına şiş deyir. Üzünü kafər görsün, belə gəlin! Tənini mürdəşir yusun, belə gəlin! Bir az da bu evdə qalsa, ağam goru, zəhrim çatlayacaq. Ondan sonra eşşək gətir, mərəkə yüklə. Bütün Ərdəbilə tüncar olacaqsız! Qoy hacı namazını bitirsin, ona da deyəcəklərim var... Get o ədəbsizin ağlını başına qoy. Yeri...

Ağa Möhsün əndərunə keçdi. Çiçək diz üstə çöküb əllərini göyə qaldırmışdı:

– Ey Yusifi quyudan, ey Yunisi balığın qarnından qurtaran Allah! Məni də bu dardan qurtar!

– Bu nə duadı, Çiçək?! Nə olub sənə?! Niyə dardasan ki? Bəyəm zindəganlığında qüsur var? Acsan, yalavacsan?

– Ağa Möhsün, bu, zindəganlıq deyil, zindandı mənim üçün. Bu evin kandarına ayaq basandan üzüm gülmədi, eynim açılmadı. Geydiyim əynimə, yediyim qarnıma qaxınc oldu. Anan deyir ki, qolundakı bilərziyi Abbas mirzənin oğlu Məhəmmədrəhim mirzənin arvadından alıblar. Ziqiymət cəvahiratdır. Mənə bunlar lazım deyil. Mən qızıl teşti istəmirəm ki, içinə qan qusum. Sənin anan mənə qan qusdurur. Mən ağlamayım, kim ağlasın?!

Əndərunun qapısı açıldı. Əvvəlcə hacı, sonra hacıxanım daxil oldu. Ağa Möhsün kiritmək istədiyi arvadından aralandı.

– Budur e, bu da oğlun! Dedim indi bu əşair hidrəsinin saçını qoluna dolayıb xıncımlayır. Əksinə, sarmaş-dolaş olub ki!

Hacı üzünü xanımına çevirdi:

– Kəs səsini, pədər süxtə! Bir mafar ver, görək ərus nə deyir?

Hacıxanım o dəqiqə susdu. Hacı Bayır saqqalını tumarlayıb gəlinə döndü:

– Quzu qurban, istəyin nəmənədi? Nəyə ehtiyacın var? Utanıb çəkinmə! Hacı baban sənə nə lazımsa, alacaq. De, nuri-didəm!

– Hacı baba, mən çöl istəyirəm!..